QANUN № 02 (352), 2024, s. 100-104

**Allahverdizadə Zaur Elbrus oğlu,**
Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyasının qiyabi doktorantı
E-mail: zaur.allahverdizadeh@mail.ru

**UOT 343.3**
**DOI: 10.30546/2218-9130. 02.352.2024.27**

# TÜRKİYƏ RESPUBLİKASININ CƏZA QANUNUNDA RÜŞVƏTXORLUQ CİNAYƏTİ

***Açar sözlər:*** *hüquq, dövlət, beynəlxalq, qanun, cinayət.*

***Ключевые слова:*** *право, государство, международный, закон, преступление.*

***Keywords:*** *right, state, international, law, crime.*

Dövlətlərin hüquq sahəsində əməkdaşlığı, qanun yaradıcılığı və tətbiqi sahəsində bir-birinin təcrübəsini nəzərə alması zəruridir və bu, qarşılıqlı surətdə zənginləşməyə xidmət edir. Başqa sözlə, hər hansı bir hüquq institutu müqayisəli kontekstdə öyrənildikdə, onun ayrı-ayrı hüquq sistemlərindəki təzahür və xüsusiyyətləri haqqında daha aydın təsəvvür əldə etmək mümkün olur. N.V.Varlamova qeyd edir ki, müqayisəli hüquqşünaslıq metodu ayrılıqda götürülmüş hüquq institutunun təkcə konkret hüquq sistemi daxilində deyil, eyni zamanda, konkret siyasi, iqtisadi, mədəni və s. şəraitdə necə fəaliyyət göstərməsi barədə biliklər əldə etməyə imkan yaradır. Bu biliklər sonradan milli hüquq sistemi daxilində mövcud institutların təkmilləşdirilməsi, onların başqa – alternativ institutlarla əvəzlənməsi, yaxud ümumiyyətlə yenilərinin yaradılması və tətbiq edilməsi üçün model qismində istifadə edilə bilər [10, s. 193-194].

N.H.Cəfərli yazır: «Müqayisəli hüququn hüquq elmi üçün, xüsusilə milli hüquq üçün çox böyük əhəmiyyəti vardır. Onun vasitəsilə ayrı-ayrı ölkələrdə bu və ya digər hüquqi problemlərin necə həll olunduğu öyrənilir, hüquqi tədqiqatların miqyası genişlənir, müxtəlif ölkələrdəki hüquqi təcrübənin müsbət və mənfi cəhətləri qiymətləndirilir. Müasir dövrdə müqayisəli hüququn verdiyi məlumatlara istinad etmədən çıxarılan ümumnəzəri nəticələr ümumiləşdirilmiş, universal xarakter daşıya bilməz.

Digər tərəfdən, hüquq elmində özünə yer etmiş bir sıra hüquqi anlayışlar xarici ölkələrin hüquq təcrübəsinə və dünyada qərarlaşmış hüquqi təfəkkürə istinad etməklə yenilənməyə ehtiyac duyur [2, s. 30].

Xarici ölkələrin qanunvericiliyinin, o cümlədən cinayət qanunvericiliyinin öyrənilməsi zəruri və əhəmiyyətli bir işdir. Bu baxımdan qardaş Türkiyənin Cəza Qanununda rüşvətxorluq cinayəti ilə bağlı öz əksini tapmış normaların öyrənilməsi həm elmi, həm də praktik cəhətdən aktual məsələdir. Belə ki, rüşvətxorluq cinayətinə həsr olunmuş araşdırmalarda müqayisəli tədqiqatların aparılmasının, onların qiymətli cəhətlərinin və qüsurlarının aşkar edilməsinin xüsusi əhəmiyyəti vardır. Bunlar aşağıdakılardır:

1) Türkiyənin Cəza Qanununda nəzərdə tutulan rüşvətxorluq cinayəti ilə bağlı hüquq nor-

malarının öyrənilməsi cinayət hüququnun tədqiq edilən məsələ ətrafında biliklərin daha da dərinləşdirilməsinə kömək edir;

2) Azərbaycan Respublikası Cinayət Məcəlləsinin rüşvətxorluq cinayəti ilə bağlı normalarının təkmilləşdirilməsi üzrə ən yaxşı hüquqi qərarların qəbul edilməsi üçün əsas yaradır.

Hazırkı şəraitdə cinayətkarlıqla mübarizə sahəsində vahid hüquqi məkanın yaradılması olduqca zəruridir və bu, baxılan problemi daha da aktuallaşdırır.

Bildirməyi zəruri hesab edirik ki, XIX əsrin 40-cı illərinə qədər Osmanlı imperiyasında cinayət-hüquqi məsələlər İslam hüququnun əsasları ilə həyata keçirilirdi. Həmin dövrdə həm fiqh kitablarında olan şəri hökmlər (şəriətin nəzərdə tutduğu hökmlər) məcəllələşdirilir, həm də zamanın ehtiyaclarını ödəmək üçün yaradılan təlimat və nizamnamələr şəklində yeni qanunlar ortaya çıxırdı. Bu dövrdə qanunyaratma fəaliyyəti də xeyli genişləndirilmiş və sözügedən dövr Avropa təcrübəsi nəzərə alınmaqla İslam hüququnda dəyişikliklər etmək cəhdi ilə əlamətdar olmuşdur [3, s. 13].

1840-cı ildə isə Osmanlı imperiyasında 1810-cu il Fransa Cinayət Məcəlləsinin təsiri altında tərtib olunmuş Cəza Qanunu qəbul edildi.

1923-cü ildə Türkiyə Respublika elan olunduqdan sonra ölkədə dövlət sistemində olduğu kimi, hüquq sistemində də radikal islahatlar aparıldı. Dövlət islahatları gedişində imperiya səltənəti və xilafət ləğv edildi və 1926-cı ildə Roman-german hüquq sistemi resepsiya olundu. Müxtəlif Avropa ölkələrinin, əsasən Fransa, İsveçrə, İtaliya və Almaniyanın məcəllə və qanunlarından nümunə kimi istifadə edilirdi. Cinayət hüququ sahəsində də ciddi dəyişikliklər həyata keçirildi. Cinayət qanunvericiliyinin köklü islahatları ərəfəsində qüvvədə olan cinayət qanunlarına tənqidi qiymət verilmişdir. Bu tənqidi qiymət iki baxımdan: birincisi, cinayət-hüquq normalarının sabitliyi, dayanıqlığı, ikincisi, həyatın tələblərinə cavab verməsi, inkişafda olması baxımından verilmişdir [3, s. 13].

Türkiyənin 1 mart 1926-cı il tarixdə qəbul olunaraq 1 iyul 1926-cı ildə qüvvəyə minmiş Cəza Qanununun üçüncü fəsli (211-219-cu maddələri) rüşvətxorluq cinayətlərindən bəhs edirdi.

F.Erem yazır: 1926-cı il martın 1-də Türkiyə Respublikasında qəbul edilən yeni Cəza Qanunu demək olar ki, 1889-cu il tarixli İtaliya Cinayət Məcəlləsinin olduğu kimi tərcüməsidir, yəni onun mütləq resepsiyasıdır [5, s. 13].

Hal-hazırda Türkiyə Respublikasında 26 sentyabr 2004-cü il tarixdə qəbul edilmiş və 1 aprel 2005-ci ildə qüvvəyə minmiş Cəza Qanunu tətbiq edilir. Adıçəkilən Qanun iki kitabı (birinci kitab Ümumi hissəni, ikinci kitab Xüsusi hissəni təşkil edir) özündə birləşdirən 345 maddədən ibarətdir [8]. Sözügedən Cəza Qanununun 252-254-cü maddələri rüşvətxorluq cinayətinə həsr olunmuşdur. Rüşvətxorluq cinayəti Cəza Qanununun “Millətə və dövlətə qarşı cinayətlər” adlanan dördüncü hissəsində öz əksini tapmışdır. Cəza Qanununun rüşvət alma əməlindən bəhs edilən 252-ci maddəsində göstərilir ki, vəzifəsinin icrası ilə bağlı işlərin görülməsi və ya görülməməsi müqabilində birbaşa və ya vasitəçilər vasitəsi ilə faydalanan səlahiyyətli vəzifəli şəxs və ya onun təyin etdiyi digər şəxs dörd ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Rüşvətxorluq cinayətinin predmeti mənfəətdir. Mənfəət vəzifənin icrası vasitəsilə ilə bağlı bir şey etmək və ya etməmək müqabilində təqdim olunan pul və ya digər əmlak ola bilər.

Azərbaycan dilinin izahlı lüğətində qeyd olunur ki, rüşvət ərəb sözüdür. Bizdə onun yerinə urunc kəlməsi işlədilib. M.Kaşğaridə belə bir deyim də verilib: bulıtığ yel açar, urunc bilə el açar (buludu külək dağıdar, elləri rüşvətlə zəbt etmək olar) [1].

Türk dilinin izahlı lüğətində göstərilir ki, rüşvət dedikdə, yerinə yetirilməsi nəzərdə tu-

tulan işi asanlaşdırmaq və sürətləndirmək məqsədilə qanunsuz olaraq vəzifəli şəxsə pul və ya digər əmlak şəklində verilən mənfəət başa düşülür [6].

V.Ö.Özbekin təbirincə, Türkiyənin Cəza hüququnda rüşvətxorluq dövlət məmurunun məcburiyyət və ya inandırma formasında heç bir hərəkət etmədən vəzifəsinin icrası ilə bağlı bir işi görməsi və ya görməməsi ilə əlaqədar əməlidir [7, s. 1028].

Rüşvət verilməsində vasitəçilik edən şəxs dövlət məmuru olub-olmamasından asılı olmayaraq cinayətin subyekti sayılır. Bu baxımdan rüşvət cinayəti yalnız dövlət məmurları ilə əlaqələndirilməməlidir.

E.M.Artuk, A.Gökcen, E.M.Alşahin və K.Çakır qeyd edirlər ki, rüşvət cinayəti zamanı bir tərəf digər tərəfə mənfəət verir, digər tərəf isə mənfəət əldə edir. Rüşvət verən tərəflə rüşvət alan tərəfin bir-birini tamamlayan əməlləri rüşvətxorluq cinayətini təşkil edir. Başqa sözlə, rüşvətxorluq cinayətinin baş verməsi üçün azı 2 (iki) təqsirkar tərəf lazımdır. Yəni bir şəxs tərəfindən rüşvətxorluq cinayətinin törədilməsi mümkün deyil [4, s. 778].

Rüşvətxorluq cinayəti dövləti və dövlət məmurlarını nüfuzdan salan, insanların dövlət qulluqçularına inamını sarsıldan bir əməl hesab edilir. Rüşvətxorluq cinayətinə misal. Yol hərəkəti qaydalarını pozmuş sürücü polis tərəfindən saxlanıldıqda sürücülük vəsiqəsi ilə birlikdə polisə müəyyən miqdarda pul təqdim edir. Polis əməkdaşı pulu qəbul edərək sürücülük vəsiqəsini sürücüyə qaytarır və yol hərəkəti qaydalarını pozmuş sürücünü cərimə etmir.

Türkiyə Respublikası Cəza Qanununun 253-cü maddəsi «Hüquqi şəxslər barəsində təhlükəsizlik tədbirlərinin görülməsi» adlanır. Həmin maddədə bildirilir ki, rüşvət cinayəti nəticəsində haqsız yerə mənfəət əldə etmiş hüquqi şəxslər barəsində tədbirlər görülür.

Sözügedən Məcəllənin «Səmimi peşmançılıq» sərlövhəli 254-cü maddəsinə əsasən, əgər rüşvət alan şəxs bu barədə rəsmi orqanların məlumatı olmazdan əvvəl rüşvətin predmeti olan əşyanı araşdırma aparmaq üçün səlahiyyətli orqanlara təhvil verərsə, o, rüşvətxorluq əməlinə görə cinayət məsuliyyətindən azad olunur.

Türkiyə Respublikası İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən 21 noyabr 1997-ci il tarixdə qəbul olunmuş Beynəlxalq kommersiya əqdlərində xarici vəzifəli şəxslərin rüşvətlə ələ alınmasına qarşı mübarizəyə dair Konvensiyanın, Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən 4 noyabr 1999-cu il tarixdə qəbul olunmuş Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında Konvensiyanın və Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 31 oktyabr 2003-cü il tarixli Qətnaməsi ilə qəbul edilmiş Korrupsiya əleyhinə Konvensiyanın iştirakçısıdır [9].

Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında Konvensiyanın 2-ci maddəsin-də korrupsiyaya bu cür tərif verilir: "Korrupsiya" dedikdə, hər hansı vəzifənin normal yerinə yetirilməsini, yaxud da rüşvəti, qeyri-qanuni üstünlüyü və ya bu barədə vədi alandan tələb edilən davranışı pozan rüşvətin və ya hər hansı digər qeyri-məqbul üstünlüyün və ya bu barədə vədin birbaşa və ya dolayısı ilə istənilməsi, təklif edilməsi, verilməsi və ya alınması başa düşülür" [11].

Korrupsiya əleyhinə Konvensiyanın 15-ci maddəsi "Dövlət vəzifəli şəxslərin rüşvətlə ələ alınması", 16-cı maddəsi "Xarici dövlət vəzifəli şəxslərinin və beynəlxalq dövlətlərarası təşkilatların qulluqçularının rüşvətlə ələ alınması", 21-ci maddəsi isə "Özəl sektorda rüşvətlə ələ alma" adlanır. Adıçəkilən Konvensiyanın 15-ci maddəsində deyilir: "Hər bir İştirakçı Dövlət, qəsdən törədildiyi halda, aşağıdakı əməlləri cinayət hüquqpozması kimi təsnif etmək üçün lazım gələn qanunvericilik və başqa tədbirləri görür:

a) dövlət vəzifəli şəxsə vəzifə öhdəliklərini yerinə yetirərkən hər hansı bir hərəkətin edilmə-

sinə və ya onun edilməsindən çəkinməyə görə vəzifəli şəxsin özü və ya digər fiziki və ya hüquqi şəxslər üçün, birbaşa və ya dolayı yolla hər hansı qeyri-qanuni üstünlüyün vəd olunması, təklif edilməsi və ya verilməsi;

b) dövlət vəzifəli şəxs tərəfindən vəzifə öhdəliklərini yerinə yetirərkən hər hansı hərəkətin edilməsinə və ya edilməsindən çəkinməyə görə vəzifəli şəxsin özü və ya digər fiziki və ya hüquqi şəxslər üçün, birbaşa və ya dolayı yolla hər hansı qeyri-qanuni üstünlüyün istənilməsi və ya qəbul edilməsi".

Yuxarıda adı çəkilən 30 oktyabr 2003-cü il tarixli Konvensiyanın 16-cı maddəsinə əsasən, "hər bir İştirakçı Dövlət beynəlxalq işlərin aparılması ilə bağlı hər hansı kommersiya və ya digər qeyri-qanuni üstünlüyün əldə edilməsi və ya saxlanılması məqsədilə xarici dövlət vəzifəli şəxsə və ya beynəlxalq dövlətlərarası təşkilatın qulluqçusuna öz vəzifə öhdəliklərini yerinə yetirən zaman hər hansı hərəkətin edilməsinə və ya edilməsindən çəkinməyə görə bu şəxslərin özü və ya digər fiziki və ya hüquqi şəxslər üçün, birbaşa və ya dolayı yolla, hər hansı qeyri-qanuni üstünlüyün vəd olunmasını, təklif edilməsini və ya verilməsini, bu, qəsdən edildikdə, cinayət hüquqpozması kimi təsnif etmək üçün lazımi qanunvericilik və başqa tədbirləri görür.

Hər bir İştirakçı Dövlət xarici dövlət vəzifəli şəxs və ya beynəlxalq dövlətlərarası təşkilatın qulluqçusu tərəfindən öz vəzifə öhdəliklərini yerinə yetirən zaman hər hansı hərəkətin edilməsinə və ya edilməsindən çəkinməyə görə özü və ya digər fiziki və ya hüquqi şəxslər üçün, birbaşa və ya dolayı yolla, hər hansı qeyri-qanuni üstünlüyün istənilməsini və ya qəbul edilməsini, bu, qəsdən edildikdə, cinayət hüquqpozması kimi təsnif etmək üçün lazımi qanunvericilik və başqa tədbirləri görür".

**İstifadə edilmiş mənbələr:**


1. Azərbaycan dilinin izahlı lüğəti - rüşvət: [Elektron resurs]: URL / https://www.azleks.az/online-dictionary/r%C3%BC%C5%9Fv%C9%99t
2. Cəfərli, N.H. Müqayisəli hüquqşünaslıq / N.H.Cəfərli. - Bakı: Elm və təhsil, - 2018. – 332 s.
3. Nəbiyev, E.Q. Türkiyə Respublikasının cinayət qanunvericiliyinin bəzi cinayət və cəza məsələləri. // Bakı: Bakı Universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası, - 2009. № 4, - s.13-19.
4. Artuk Mehmet Emin, Gökcen Ahmet, Alşahin Mehmet Emin, Çakır Kerim. Ceza Hukuku Genel Hükümler. Ankara: Adalet Yayınevi, 2019, - 1156 s.
5. Erem F. Türk ceza hukuku. Ankara.: Sevinç matbaası, 1971, 625 s.
6. Güncel Türkçe Sözlük: [Elektronik kaynak] / https://sozluk.gov.tr/
7. Özbek Veli Özer. Ekonomi Ceza Hukuku – İkinci Kitap: Özel Hükümler. - Ankara: Yayınevi Seçkin Yayıncılık. – 2023. – 1176 s.
8. Türk Ceza Kanunu / Kanun Numarası: 5237, Kabul Tarihi: 26/9/2004: Yayımlandığı R.Gazete: Tarih: 12/10/2004, Sayı: 25611: [Elektronik kaynak] / https://is.gd/Aybuqf
9. UNITED NATIONS CONVENTION AGAINST CORRUPTION: [Electronic resource] / https://is.gd/Jzjc7v
10. Варламова, Н.В. Современная компаративистика: сравнительное правоведение или сравнительная культурология? // Материалы Всероссийской научной конференции «Современное правоведение: поиск методологических оснований», - Москва: – 26 марта, - 2011, - с. 192-200.
11. Конвенция о гражданской ответственности за коррупцию: [Электронный ресурс] / https://is.gd/zd2MYt

**Аллахвердизаде Заур Эльбрус оглу**

## ПРЕСТУПЛЕНИЕ ВЗЯТОЧНИЧЕСТВА В УГОЛОВНОМ ЗАКОНЕ ТУРЕЦКОЙ РЕСПУБЛИКИ

**РЕЗЮМЕ**

В статье отмечается, что Турецкая Республика является участником международной конвенции по борьбе с подкупом иностранных должностных лиц при осуществлении международных коммерческих сделок, принятой Организацией экономического сотрудничества и развития 21 ноября 1997 года, Конвенции о гражданской ответственности за коррупцию, принятой Комитетом Министров Совета Европы 4 ноября 1999 года, и Конвенции Против коррупции принятой резолюцией Генеральной Ассамблеи ООН от 31 октября 2003 года. Статьи 252-254 Уголовного закона Турецкой Республики от 26 сентября 2004 года посвящены преступлению взяточничества.

**Allahverdizadeh Zaur Elbrus**

## THE CRIME OF BRIBERY IN THE CRIMINAL LAW OF THE REPUBLIC OF TÜRKIYE

**SUMMARY**

The article states that the Republic of Turkiye is a party to the Convention on Combating Bribery of Foreign Public Officials in International Business Transactions adopted by the Organization for Economic Cooperation and Development on November 21, 1997, Convention on Civil Liability for Corruption, adopted by the Committee of Ministers of the Council of Europe on 4 November 1999, and the Convention against Corruption adopted by the UN General Assembly resolution of October 31, 2003. Articles 252-254 of the Criminal Law of the Republic of Turkiye dated September 26, 2004 deal with the crime of bribery.

**Redaksiyaya daxilolma tarixi: 03.02.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: 05.02.2024**
**Çapa qəbul olunma tarixi: 07.02.2024**